

Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Dekabr 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

## GƏLƏN İL AZƏRBAYCAN NÖVBƏTİ BÖYÜK İDMAN YARIŞINA EV SAHİBLİYİ EDƏCƏK, BU DA MDB OYUNLARIDIR.

Gələn il Azərbaycan növbəti böyük idman yarışına ev sahibliyi edəcək, bu da MDB Oyunlarıdır. Üçüncü MDB Oyunları Azərbaycanda keçiriləcək. Bunun üçün 14 şəhər seçilibdir və əsas oyunlar Gəncə şəhərində keçiriləcək. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 24 dekabr 2024-cü il tarixində idman yekunlarına həsr olunan mərasimdən çıxışı**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 19

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2024-cü ilin yanvar-noyabr ayları ərzində qeyri-neft-qaz ixracı 3,1 milyard ABŞ dolları təşkil edib.

## Cari ilin yanvar-noyabr ayları ərzində yeyinti məhsullarının ixracı 923 milyon ABŞ dolları olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın dekabr sayını təqdim edib. İcmala əsasən, 2024-cü ilin yanvar-noyabr ayları ərzində Azərbaycanın qeyri-neft-qaz ixracı 2023-ci ilin müvafiq dövrü ilə müqayisədə **1,9%** artaraq **3,1 milyard** ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-noyabr ayları ərzində yeyinti məhsullarının ixracı **12,3%** artaraq **923 milyon** ABŞ dollarına bərabər olub.

Cari ilin 11 ayı ərzində ixrac olunan şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları **65,4%** artaraq **37,5 milyon** ABŞ dolları, pambıq lifi **52,6%** artaraq **170 milyon** ABŞ dolları, bitki mənşəli yağlar və piylər **32%** artaraq **25,5 milyon** ABŞ dolları, qiymətli metallar **29%** artaraq **189,8 milyon** ABŞ dolları, kimya sənayesi məhsulları **19,6%** artaraq **265,6 milyon** ABŞ dolları, spirtli və spirtsiz içkilər **13,5%** artaraq **64,4 milyon** ABŞ dolları, çay **1,6%** artaraq **6 milyon** ABŞ dolları, qara metallar **1,9%** artaraq **48,2 milyon** ABŞ dolları, alüminium və ondan hazırlanan məmulatlar **1,5%**

artaraq **182,7 milyon** ABŞ dolları təşkil edib.

2024-cü ilin yanvar-noyabr ayları ərzində aqrar məhsulların ixracı **4,4%** artaraq **701,7 milyon** ABŞ dolları, aqrar-sənaye məhsullarının ixracı **58,3%** artaraq **287,3** milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı **15,9%** artaraq **988,9 milyon** ABŞ dolları təşkil edib.

Cari ilin 11 ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (**186,6 milyon** ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (**168,9 milyon** ABŞ dolları) ikinci, tomat (**155,4 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

Hesabat dövründə Rusiya Federasiyasına **1,1 milyard** ABŞ dolları, Türkiyəyə **507,1 milyon** ABŞ dolları, Gürcüstana **252,9 milyon** ABŞ dolları, İsveçrəyə **193,6 milyon** ABŞ dolları, ABŞ-yə isə **129,6 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2024-cü ilin noyabr ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında xurma (**33,6 milyon** ABŞ dolları) birinci, qızıl (**23,2 milyon** ABŞ dolları) ikinci, meşə fındığı (**18,9 milyon** ABŞ dolları) üçüncü olub.

Cari ilin noyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**111,2 milyon** ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (**30,1 milyon** ABŞ dolları) ikinci, İsveçrə (**24,7 milyon** ABŞ dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI dekabr



# 2024-CÜ İLİN NOYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024
İXRAC İCMALI
dekabr




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN NOYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI dekabr




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI
(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2024 İXRAC İCMALI dekabr



# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2024-CÜ İLİN NOYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI dekabr



# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI dekabr

| Mal | 2024 | 2023 |
|---|---|---|
| Qızıl | 186,6 | 143,1 |
| Pambıq mahlıcı | 168,9 | 111,1 |
| Tomat (pomidor) | 155,4 | 140,5 |
| Meşə fındığı | 113,9 | 108,4 |
| Karbamid | 112,8 | 72,5 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 100,2 | 45,2 |
| Metanol (metil spirti) | 94,9 | 81,4 |
| Elektrik enerjisi | 93,9 | 379,3 |
| İlkin formalı propilen sopolimerləri | 93,9 | 90,6 |

# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI dekabr

| | 2024 | 2023 |
|---|---|---|
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen (PE) | 88,3 | 85,5 |
| Xurma | 86,5 | 91,4 |
| Polimerləşmədə ilkin formalı maddələr | 72,1 | 76,3 |
| Minik avtomobilləri, mühərrikinin həcmi 3000 sm3-dən çox olan sıxılmaqdan alışan DYM-li (dizel) | 69,9 | 44,5 |
| Kərə yağı | 69,7 | 5,4 |
| Şaftalı | 68,6 | 51,5 |
| Digər yağlar və məhsullar | 66,6 | 57,6 |
| Alma | 53,2 | 50,2 |
| İlkin formalı polipropilen (PP) | 50,6 | 100,5 |

# 2024-CÜ İLİN NOYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



| Mal | 2024 | 2023 |
|---|---|---|
| Xurma | 33,6 | 45,3 |
| Qızıl | 23,2 | 25 |
| Meşə fındığı | 18,9 | 9 |
| Karbamid | 14,7 | 9 |
| Tomat (pomidor) | 13,4 | 14,4 |
| Polimerləşmədə ilkin formalı maddələr | 11,7 | 1,2 |
| Metanol (metil spirti) | 11 | 8,3 |
| Alma | 10,6 | 9 |
| Nar | 9,4 | 7,1 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2024-cü ilin yanvar-noyabr ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: “MKT İstehsalat Kommersiya” MMC, “Silk Vey Vest Aviaşirkəti” MMC, “ASG Business Aviation” MMC, “Baku Steel Company” QSC, Süleymanova Göhər Süleyman qızı, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Tabaterra" QSC, “Khan-El” MMC, “Atena” Məhdud Məsuliyyətli Cəmiyyəti.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: “SOCAR Polymer” MMC, “AzerGold” QSC, “Azəralüminium” MMC, “Azərenerji” ASC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Hava Yolları” QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, “Suraxanı Maşınqayırma zavodu” ASC, “Azəripək” MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**




* “SOCAR Polymer” MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** “AzərGold” QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

# QEYRİ-NEFT-QAZ XİDMƏT İXRACI ARTIB (ƏSAS İSTİQAMƏTLƏR ÜZRƏ)

2024 İXRAC İCMALI dekabr

**Mənbə**: 2024-cü ilin 9 ayı üzrə Azərbaycan Respublikasının tədiyə balansı, Mərkəzi Bank

**+37,1%**

Qeyri-neft-qaz xidmət ixracı
**4,6 mlrd ABŞ $**

**+14,8%** Qeyri-neft-qaz nəqliyyat xidmətləri ixracı
**1,1 mlrd ABŞ $**

**+43,4%** Turizm xidmətləri ixracı
**1,6 mlrd ABŞ $**

**+4,3 dəfə** Sığorta xidmətləri
**108 mln ABŞ $**

**+5,6 dəfə** Royalti və lisenziya xidmətləri
**16,5 mln ABŞ $**

**+88%** Maliyyə xidmətləri
**31 mln ABŞ $**

**+13%** Hökumət xidmətləri
**26,9 mln ABŞ $**

**+47,2%** Digər işgüzar xidmətlər
**1,6 mlrd ABŞ $**

**+2 dəfə** Şəxsi, mədəni və əyləncə xidmətləri
**49,7 mln ABŞ $**

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 16,9 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 50 ölkəsinə **16,9 milyon** ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac olunub. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **73%**-ni təşkil edib. 2024-cü ilin noyabr ayında isə "Azərkosmos" dünyanın 40 ölkəsinə **1,5 milyon** ABŞ dolları dəyərində xidmət ixrac edib.

On bir ay ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **5,4 milyon** ABŞ dolları ilə Birləşmiş Krallıq, **3,5 milyon** ABŞ dolları ilə Lüksemburq, **826,1 min** ABŞ dolları ilə BƏƏ, **639,5 min** ABŞ dolları ilə Pakistan, **600,4 min** ABŞ dolları ilə Türkiyə qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 16,9 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR





**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| Dəyər | Ölkə |
|---|---|
| 5,4 mln $ | Birləşmiş Krallıq |
| 3,5 mln $ | Lüksemburq |
| 826,1 min $ | BƏƏ |
| 639,5 min $ | Pakistan |
| 600,4 min $ | Türkiyə |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar-noyabr ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 2.5 milyard manatlıq əməliyyat aparılıb.

Cari ilin yanvar-noyabr aylarında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **2,5 milyard** manat, yalnız noyabr ayında isə **259,1 milyon** manat dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR

2024 İXRAC İCMALI dekabr

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | 186,5 | 162,3 | 184,3 |
| Mart | 158,6 | 218,1 | 173,7 |
| Aprel | 136,6 | 126 | 210 |
| May | 184,1 | 173,4 | 225,8 |
| İyun | 203,6 | 148,6 | 221,7 |
| İyul | 214 | 218,8 | 267 |
| Avqust | 214,6 | 200,9 | 251,4 |
| Sentyabr | 155,5 | 186,2 | 265,2 |
| Oktyabr | 124,4 | 203,6 | 252,7 |
| Noyabr | 158,1 | 181,8 | 259,1 |
| Dekabr | | | |
| | 2 mlrd | 2 mlrd | 2,5 mlrd |

* Mərkəzi Bankın təqdim etdiyi statistikası əsasında

# 2024-CÜ İLİN YANVAR-NOYABR AYLARINDA ÖLKƏYƏ GƏLƏN ƏCNƏBİ VƏTƏNDAŞLARI SAYINA GÖRƏ İLK 10 ÖLKƏ

(min nəfər)

2024 İXRAC İCMALI dekabr

**Mənbə**: Dövlət Miqrasiya Xidməti, 2024

| | 2023 | 2024 | artım |
|---|---|---|---|
| Rusiya | 577,8 | 679,9 | ▲ 18.5% |
| Türkiyə | 341,8 | 389,1 | ▲ 14% |
| Hindistan | 99,8 | 214,7 | ▲ 115% |
| Gürcüstan | 148,8 | 193,9 | ▲ 30% |
| İran | 93,7 | 99,9 | ▲ 7% |
| Səudiyyə Ərəbistanı | 76,5 | 93,9 | ▲ 23% |
| Qazaxıstan | 53,2 | 79,7 | ▲ 50% |
| Pakistan | 49,1 | 72,9 | ▲ 48% |
| Çin | 21,8 | 42,4 | ▲ 94% |
| Özbəkistan | 35,2 | 40,9 | ▲ 16% |

Cəmi 1,893,7

Cəmi 2,412,2 ▲ 27%

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций

Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat